**UOT 94 (479.25)**

# ERMƏNİLƏRİN İNANC SİSTEMİNDƏKİ KİMLİK PARADİQMASI

**Elgün QƏHRƏMANOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 16 dekabr 2024; çapa qəbul edilmişdir: 17 iyun 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 16th of December, 2024; accepted: 17th of June, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *Ermənistan, erməni paqanizmi, Moisey Xorenli, erməni kimliyi, erməni xristianlığı*

## Giriş

Millətlər hansı səviyyədə olmalarından asılı olmayaraq, istər qədim dövrlərdə, istərsə də müasir dönəmdə daima nələrəsə inanmaq ehtiyacı duymuşlar. Ermənilərdə ilk inanc sistemi qarışıq və müxtəlif mənşəli olduğunu görmək mümkündür. Ermənilərin qədim dövrlərdəki inanc sisteminə baxdıqda, daha çox qonşu ölkələrin dinləri ilə ortaq xüsusiyyətlərə malik olduğunu müşahidə edə bilərik.

Uzun müddət erməni kimdir? Sualının cavabı əsasən bu şəkildə şərh edilirdi. Erməni apostol kilsəsinə (qriqoryan kilsəsi) mənsub olanlar ermənidir. Bu cavab XIX əsrin ortalarına qədər erməni cəmiyyətini qane edirdi. Lakin millətçiliyin və digər ideologiyaların ortaya çıxmasından sonra cavablar müxtəlif olmağa başlamışdı. Xristianlıqdan əvvəl erməni kimdir? sualının cavabı isə günümüzdə də hələ də qeyri-müəyyən olaraq qalmaqdadır. Ermənistanla ermənliyin eyniləşdirilməsi daha çox xristianlığın qəbul edilməsindən sonra baş vermişdir. Xristian dinin qəbul edilməsindən sonra Ermənistan adlanan coğrafiyada olan müxtəlif icmalar erməni adı altında birləşmiş və Sasanilərə qarşı vahid cəbhə almışdırlar.

Xristianlıqdan əvvəl erməni dini inanclarını tədqiq etdikdə iki əsas xətt görmək mümkündür. Yunan tanrılarına və İran tanrılarına sitayiş edilməsini görmək mümkündür. Ermənilərin yunan tanrılarına üstünlük verməsi, daha çox ellin mədəniyyətinin üstünlüklərindən yararlanmaq, şəhərləşmə prosesini sürətləndirmək üçün yunan dinini vacib hesab etmələri ilə bağlı idi. Bu tanrılarla bağlı bütlər, daha çox indiki Ərzincan bölgəsində tapılmışdı. Sonrakı dövrlərdə bu tanrılar İran tanrıları ilə əvəzlənmişdir. Anahit tanrıçasını əvvəl yunan, sonra isə İran tanrısı kimi sitayiş edilməsini, din çevrilməsinə ən gözəl nümunə kimi qəbul etmək olar. Bunun başlıca səbəbi kimi, iki fərqli dünyagörüşü olan yunan və İran mədəniyyətləri arasında seçim etmələri ilə bağlı idi. Yəni zaman-zaman, daha güclünün yanında yer almaq kim başa düşülə bilər. Ermənilər xristianlığın qəbul edilməsini isə öz tarixlərində ən böyük hadisə kimi qəbul etməkdədirlər.

* *tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti*
*e-mail:* elgun041@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.210**

## 1. Qədim erməni dinlərinin hekayə quruculuğundakı rolu

E.ə. IV əsrdə ermənilər inanc sistemlərində günəş və ayın qardaş olduqlarını qəbul edirdilər. Xüsusilə, günəş tanrısına sitayişi ilə daha çox fərqlənirdilər. Bu gələcəkdə xristianlıqda da özünü göstərəcəkdir. Erməni kilsəsinin memarlığını tədqiq etdiyinizdə "apsisin" daima şərqə doğru yönəlməsi görülür. Bu memarlıq tərzi günəşin doğuşu ilə əlaqəli olduğu kimi, İsanın da anadan olmasını xəbər verən ulduzun şərqdən gəlməsi ilə əlaqəlidir. Od və suyun qüvvət-təmizlik nişanəsi olaraq qəbul edildiyini də görmək mümkündür. Bu inancın da farslardan, yəni atəşpərəstlikdən gəldiyini düşünmək olar. Farslar da suyu və odu qardaş olaraq qəbul edirdilər [4, s. 5-6].

Çoxtanrılıq da ermənilərin inanc sistemində yer almışdır. Yaxşı fikirlərə və müxtəlif xüsusiyyətlərə sitayiş edilməsini erməni inancında görmək mümkündür.1) Elçilər-Bu qüvvət tanrıların istəklərini insanlara çatdırır; 2) Cinlər-pis ruhlardır, yaşadıqları yerə "tələ" deyirdilər; 3) Mihr (od tanrısı). Bu tanrı insanlar tərəfindən görülməz, ildə bir dəfə ortalığa çıxar və o zaman yeni evlilər əl-ələ verərək, ətrafında rəqs edərlər. Ermənilər inandıqları varlıqları maddi olaraq göstərmək üçün büt düzəldirdilər. Bu bütlərin şəkli və kimliyi o zaman qonşu cəmiyyətlərin inanclarından oğurlanır və ya təsir altına düşürdü.

Anahit – saflıq və təmizlik tanrıçasıdır. Qızıldan düzəldilən bir bütdür:

Asdigig – gözəllik tanrıçasıdır.

Vahaq – güc və cəsarət tanrısıdır.

Nune – namus və sadəlik tanrıçasıdır.

Ermənilər arasında xristianlıqdan əvvəl geniş yayılmış dinlərdən biri zərdüştlük olmuşdur. Günümüzdə də bu dindən qalan və digər xristian məzhəbləridən görülməyən "Madaq" deyilən qurban kəsmək kimi adətlər, ermənilər arasında hələ da yaşamaqdadır. Yuxarıda qeyd etdiyimiz kimi, Ellin mədəniyyətinin təsirlərini də müasir erməni xristianlığında rast gəlinir [5].

Ermənilərin yaşadıqları Şərqi Anadolu coğrafiyasının tarixi mühitini qısaca qiymətləndirsək e.ə. IX-VI əsrlərdə Urartu dövlətinin nəzarəti olduğunu görərik. Urartuları erməni tarixçiləri tərəfindən bir qədim erməni dövləti kimi qəbul etsələr də, ermənilərlə həmin qədim dövlətin arasında dil əlaqəsinin olmaması bu fərziyyəni əsasız edir. Çünki bildiyimiz kimi, erməni dili hind-Avropa dil ailəsinə aiddir, lakin Urartu mixi yazılarında rast gəlinən dil, Qafqaz dil ailəsinə aiddir, xüsusilə də çeçen dilinə oxşarlığı müasir tarix elmində sübut edilmişdir. E.ə. VI əsrin əvvəlləri Urartu dövlətinin siyasi varlığına son qoyan midiyalılar bir müddət öz hökmranlığını sürdürmüşdür. E.ə. 550-ci ildə yaranan Əhəminilər imperiyasının əraziləri Anadoludan Orta Asiyaya qədər çatırdı. Tarixdə ilk dəfə ermənilərlə bağlı olan coğrafi ad farsların dövründə meydana çıxdı. Müasir Həmədan yaxınlığında Behistun qaya relyefində fars şahı I Dara hökmranlıq etdiyi ərazilər arasında Armina (Armeniya) adını çəkir. Yəni biz burada xalq və ya etnos deyil, bir coğrafi ərazinin adının çəkilməsini görürük. Sonrakı əsrdə, yəni e.ə. V əsrdə Herodot ermənilərlə frigiyalılar arasındakı əlaqəyə diqqət çəkir. Nəzərə alsaq ki, qədim frigiyalıların da dilləri Hind-Avropa dil qrupuna aiddir [3, s. 64]. Ona görə də, Mesapotomiya mədəniyyətlərindən miras qalmış terminlərdə olduğu kimi, yunanların və romalıların irəli sürdükləri Ermənistan adı da etnonim təsnifatından çox, bilavasitə müəyyən bir coğrafiyanı ifadə edən toponomikadır. Bu səbəbdən də qədim müəlliflərin işlətdiyi adı çəkilən coğrafiyanın da etnonim təsnifatından çox, sözünün bölgədə eyni mənşəli icmaları əhatə etmədiyi, yalnız Pontus və Kappadokiya nümunələrində olduğu kimi coğrafi çərçivə cızdığı açıq-aydın görünür. Bu vəziyyət Ermənistandakı insanların əslində kim olduğu ilə bağlı bir çox müzakirələrin və araşdırmaların əsas motivi olmuşdur.

I əsrdə yaşamış Roma tarixçisi Tasit Roma-Parfiya müharibələri haqqında danışarkən, Ermənistan bölgəsindəki icmalar üçün – "naməlum " və ya "mənşəyi qeyri-müəyyən" mənası verən *"ambigua gens"* ifadəsini işlətmişdir [3, s. 67]. Buna baxmayaraq, Behistun kitabələrindən bu yana bölgənin əhalisinin kimliyinin hələ qəti şəkildə müəyyən edilmədiyi qənaətinə gəlmək olar. Bu çox dəyişkən icmalarda yaşayan müxtəlif qrupların başqalarından fərqlənmək üçün öz dillərində işlətdikləri ifadələrin çoxluğu, müəyyən mənada regionun bu mürəkkəb quruluşunun göstəricisidir. Doğrudan da, aydındır ki, coğrafiyanın əlverişsiz və ya kəskin hətta yaxın bölgələrində də müxtəlif insan qrupları mövcud idi. Qafqazdan Şərqi Anadoluya qədər uzanan xalqların köçü və işğal fəaliyyətləri regionun strukturunu daha da mürəkkəbləşdirib. Digər tərəfdən, qədim mənbələrdə bölgənin coğrafi tərifinin dəyişkənliyi başqa problem kimi tarixşünaslıqda öz yerini tutur.

Qeyri-müəyyən qəbilə fikri, digər xalqları, İber və Qafqaz Albanlarını da ayrıca qiymətləndirmək zərurətini ortaya qoyur. Necə ki, ermənilərin öz irqinə və yaşayış sahəsinə öz əcdadlarının adını verməyə ehtiyac duymalarının səbəbi də başqalarından fərqlənmək istəyidir. Bildiyimiz kimi, ermənilər özlərinə hay, yaşadıqları bölgəni Hayastan və dillərini də hayeren olaraq adlandırmışlar. Təxminən bir əsr əvvəl ermənilərin mənşəyi hesab olunmağa başlayan Het dövründən qalma Hayasa-Azzi əlaqəsi hələ də akademik dairələr tərəfindən geniş şəkildə qəbul olunmaqdan uzaqdır [1, s.18].

Antik dövrdə erməni adlarının daha çox iran mənşəli olduğunu görmək mümkündür. Erməni aristokratlarının adlarının kök olaraq iranmənşəli olduqlarını həm Əhəmənilər, həm də Parfiya zamanında erməni tədqiqatçıları da vurğulamışlar. Artaşes, Tiqran, Trdat və s. adların iranmənşəli olduğunu nəzərə alsaq, bu fikrin həqiqət payını artırmış olur [4, s. 27].

Ermənilərin xristianlığı 301-ci ildə qəbul etməsi fikri günümüzdə də erməni tarixçilərin müdafiə etdiyi və hətta da bununla fəxr etdiyini bilməkdəyik. Lakin həmin dövrün ictimai və siyasi şərtlərini nəzərə alsaq, bu fikrin inandırıcı olmadığı qənaətinə gəlmək mümkündür. 301-ci ildə Roma imperiyasında xristianlığı qəbul etmək, işlənilən ən böyük cinayətlərdən biri hesab edilir və cəzasının ölüm olduğu bilinməkdədir. Təbii ki, Roma imperiyasının sərhədlərində ermənilər dini bu dövrdə rəsmi şəkildə qəbul etmələri daha çox əfsanələşdirilmişdir. Erməni kimlik arayışında qırılma anı xristianlığın qəbul edilməsi ilə bağlıdır. Çünki ermənilərin retrospektiv şəkildə yaratdıqları kimlik paradiqması çərçivəsində xristianlığın özlərini hay adlandırılmasında danılmaz töhfəsi və ruhanilərin formalaşdırdığı ədəbiyyatda fon yaratmaq səyi var. Həqiqətən də, xristianlığı yeni qəbul etmiş erməni aristokratiyası yenidən doğulan irqlərlə öz nəsilləri arasında əlaqə yaratmağı seçdi. Əslində xristianlığın ermənilərə gətirdiyi əsas düşüncə, irqə əsaslanmayan milli erməni obrazı idi. Bu obraz çərçivəsində Ermənistanda, xüsusilə antik dövrdə söz sahibi olan tayfa başçıları, nəciblər (naxararlar) həlledici rol oynayırdılar [2, s. 71]. Həqiqətən, sayları zamanla dəyişən, mülkləri kişilər vasitəsilə irsi olan bu feodal ailələr, ümumiyyətlə, ermənilər kimi tanınsalar da, qədim mənbələrdən onların bir çoxunun mənşəyinə görə müxtəlif etnik qruplara mənsub olduqları müşahidə olunur. Bu baxımdan son antik dövrdə Ermənistanda yaşayan icmaları təmsil edən qullar, sonralar isə feodal ailələrinin ermənistanlı, yoxsa erməni (hay) adlandırılması məsələsi hələ də cavabını gözləyir.

Ermənistanda yerli tayfa başçılarının davamçıları olan çox müxtəlif mənşəli icmalar, İranda olduğu kimi, fərdi qan bağlarına görə öz daxilində fərqli etnik qollara malik idilər. Erməni feodal sülalələri ya nikah yolu ilə İran zadəganları ilə əlaqəli idi, ya da tam olaraq İran mənşəli idi. Ermənistanın monarx ailələri, Eraundunlar (Orontidlər e.ə.570-190), Artaşesiyalılar (e.ə.190-15) və Arşakilər (53-428) bu əlaqələrin ən məşhur nümunələridir. Feodalizm dövründə erməni sülalələrin daxili siyasi quruluşları fərqli

olması onların müxtəlif bölgələrdə yaşaması ilə bağlıdır. Lakin bu feodal ailələrin bir-birinə qarışmış qohumluq əlaqələri, bütpərəst tanrılarla əlaqəsi, xristianlıqla bağlı qəhrəmanlıq rəvayətləri, yerli elementlərin izləri olduğu üçün heç bir halda onları dam altında toplamaq mümkün deyil. Ermənilərin mənşəyini müəyyən edən əsas mənbə V əsrdə yaşadığı güman edilən Moisey Xorenli yazdığı kitabdır [1, s.11]. O, ermənilərin mənşəyini əfsanəvi və ənənəvi hekayələrlə izah edir. IV əsr boyu ermənilərin bir-birindən fərqli 28 sülalələri mövcud olmuşdur. Bu ailələrin etimoloji adlandırılması bəzən vəzifələrindən irəli gələn ifadələrlə, bəzən ata-baba adları ilə, bəzən də yerləşdikləri coğrafiya ilə müəyyən edilirdi. Buna misal olaraq hökmdarlara içkilər hazırladıqları üçün şərab mənasını verən gini sözündən yaranan Qnunilər, Baqrat adı ilə tanınan Baqratunilər və Otene bölgəsində yaşadıqları üçün Otene sülaləsi olaraq adlandırılan ailələri göstərmək olar. Digər tərəfdən, mövzunun əsas tarixşünaslığı olan Moisey Xorenatsinin Ermənilərin tarixi (Patmutiun Hayoc) adlı əsərində feodal ailələrinin üzvlərinin zadəgan mənasını verən naxarar və azad mənasını verən azkay və ya tağavor və şahzadə mənasını verən işxan titulların olduğu barəsində bəhs edilir. Bu cür titullara diqqət etdiyimiz zaman İran təsiri (pəhləvi) və zərdüştlüyün əhəmiyyətli izlərinin olduğunu görürük. Məsələn, azad (aznuakan) zadəganlıq mənasında yuxarı təbəqələri təmsil etsə də, "yazata"lardan qalma müqəddəslik mənasını da ehtiva edir. Bu vəziyyət onu göstərir ki, hətta V əsrdə də erməni icmalar onlara yad olan xristianlığa qarşı zərdüştlük meyillərini qoruyub saxlamışlar.

## 2. Ərəb hakimiyyəti dövründə ermənilərin dini-mədəni inkişafı

Ermənilər son seçimini xristianlıqdan Qərb sivilizasiyasından etsələr də, özlərində fars mədəniyyətinin izlərini saxladılar. Ermənilərin Bizans tərəfindən iştirakı yalnız Sasani təhlükəsini aradan qaldırdı. Xristianlıqla birlikdə Bizans hakimiyyətinə daxil olması sonrakı illərdə ermənilər üçün yeni və bitib-tükənməyən münaqişələrin başlaması demək idi. Bizansla ermənilərin arasındakı dini qarşıdurma, Xalkedon din məclisinin qərarlarının verilməsi zamanı daha da alovlandı. Xalkedon dini məclisinin qərarlarını ermənilərin məcburi şəkildə qəbul etdirməsi, digər teoloji mübahisələr ermənilərlə bizanslıları bir-birindən ayıran əsas problemlər olaraq qalırdı.

Ərəblərin Sasani dövlətinin varlığına son qoyduqdan sonra İran torpaqlarında və Qafqazdakı güc hakimiyyətinin tarazlığı tamamilə dəyişmiş oldu. Uzun müddət Bizans-Sasani müharibəsinə səhnə olan Qafqaz, sonra ərəb-Xəzər və ərəb-Bizans müharibələr üçün bufer bölgə olmaqdan xilas ola bilmədi. Ərəblərin hakimiyyəti altına düşən erməniləri öz dini kimliklərin qorunmasında, islam ideologiyası ilə üst-üstə düşən monofizitliyindən xüsusi istifadə etmişdirlər. Ermənilər nəinki xristianlıqlarında qaldılar, hətta ətrafda olan qeyri-monofizit təriqətində olan kilsələri də öz tabeliyinə keçirmişdilər. Bildiyimiz kimi, ermənilər Ərəb yürüşləri dövründə ərəblərdən gələn ittifaq təkliflərinə müsbət baxırdılar. Bunun əsas səbəblərindən biri Bizansın dini və siyasi təzyiqdən qurtulmaq istəyi idi. Bu səbəbdən ermənilər öz dini kimliklərini və varlıqlarını qorumaq üçün ərəb hakimiyyətini ən əlverişli seçim olaraq görmüşdülər. Monofizitliyi ideoloji olaraq islam dini ilə ortaq xüsusiyyətlərinin olması ərəb-erməni ittifaqını daha da möhkəmləndirmişdi. Monofizit məzhəbinin, diofizitdən başlıca fərqi İsa peyğəmbəri Allahın oğlu deyil, Allahın elçisi (peyğəmbəri) olma fikri əsas götürülür. Diofizitlikdə isə İsa Allahın oğludursa, deməli, "İsa da Allahdır" fikri daha üstün hesab olunurdu. Monofizitliyin bu cür ideoloji baxışı, onların nəinki ərəblərin, o cümlədən Səlcuqi və Osmanlılar dövründə də qoruyub saxlamış, hətta kilsələrini inkişaf etmişdirlər. Mənbələrdə xristian abidələrinin xronologiyasına baxdıqda, daha çox müsəlman dövlətlərin zamanında tikilmişdir. Dolaysıyla müsəlman-türk dövlətlərin zamanında erməni xristian kilsə hakimiyyəti özlərinin ən yüksək dövrlərini yaşamışdırlar [4, s.146].

Müxtəlif mənbələrdə Ərməniyyə adlanan bölgə indi Şərqi Anadolu ərazilərində yerləşir, indiki Ermənistanla əlaqəsinin olmadığı sübuta yetirilmişdir. Ərməniyyə anlayışı Assurlardan gələn coğrafi anlayış, yəni yuxarı ölkə mənasını verib, Fərat çayının şimalını ifadə etmişdi.

Müaviyənin Şam valiliyi dövründə Teodor Rüşduni ermənilərin başçılığına gətirmiş, bölgədə müvəqqəti sülh və əmin-amanlıq yarandı. Lakin Rüşduni nəslindən sonra ermənilərin başına gətirilən Mamikonyan sülaləsi Xəlifə Əli və Şam valisi Müaviyə arasındakı münaqişədən istifadə edib, Bizans tərəfə keçdi. Müaviyə hakimiyyətə gəldikdən sonra ermənilərin bu cür xəyanətlərini unutmadı və bəzi tədbirlər görməyə başladı. İlk olaraq, Mamikonyan sülaləsindən Krikor Mamikonyanı vali təyin etdi. Onun dövründə Şərqi Anadoluda ermənilərdə sabitlik hökm sürmüşdü. Lakin VII əsrin 80-ci illərində Ərəb xilafəti daxili qarşıdurması onun tabeliyində olan xalqların da ictimai-siyasi vəziyyətinə təsirsiz ötüşməmişdi. Lakin bu dönəmdə də erməni valisi Krikor Mamikonyan ərəb xilafətinə qarşı çıxmamış, onun təbəsi kimi valiliyini davam etdirir. Bu bəzi erməni din xadimləri tərəfində narazılıqla qarşılanmışdı, hətta bunu şeytanla əməkdaşlıq kimi qiymətləndirirdilər. Erməni tarixçisi Sebeosun isə bu məsələyə fərqli yaxınlaşaraq bunu paqanist Bizans xalkedonluqdan qurtulmaq, hətta tanrının dindən çıxmış Bizansa verdiyi bir cəza olaraq ifadə etmişdir [1, s. 20]. Lakin erməni üsyançıları tərəfindən Krikor Mamikonyan öldürüldü. Bu hadisələrdən sonra ərəblər erməni siyasətinə uyğun olaraq başqa bir sülaləni ermənilərə vali təyin etdi. Bakradunilər sülaləsindən Aşot Bakraduni 686-ci ildə vəzifəyə başladı. Şərq vilayətlərindən əl çəkməyən Bizans imperatoru II Yustinian 689-cu ildə ermənilər üzərinə yürüş etdi. Başqa cür bu səfəri erməniləri cəzalandırmaq məqsədi ilə edildiyi kimi də başa düşülməkdədir. Lakin əsas məqsəd ərəb hakimiyyətinə son qoymaq idi.

Məşhur amerikalı müəllif Edvar Luttvakın "Roma imperiyasının böyük strategiyası" adlı əsərində ermənilərin təsviri olduqca maraqlı və günümüzlə səsləşməkdədir. "Armeniya (indiki Şərqi Anadolu) olduqca dağlıq, demək olar ki, yararsız, bununla belə, önəmli bir coğrafiyadır" [6, s. 19]. Bu sitatdan da görmək mümkündür ki, Şərq və Qərb qarşıdurmasında Armeniya əraziləri bir vasitə olmuşdu. Əməvilər və Abbasilər dönəmində də biz Bizansa qarşı Armenia bölgəsi bir vasitə olduğunu açıq-aydın görə bilərik. Əməvilər sülaləsi erməni üsyanlarına baxmayaraq, onlara kilsənin inkişaf etdirilməsi üçün bəzi dini azadlıqlar vermişdi. VIII əsrin I yarısında erməni din xadimlərindən biri olan Otzunlu Hovhannes Bizansın Xalkedon din məclisinin qərarlarını və birləşmə təkliflərini ərəblərin dəstəyi ilə rədd etmişdi. 726-ci ildə Hovhannes Suriya yepiskopları ilə birgə təşkil etdiyi Malazgirt dini məclisdə bu qərarı açıq şəkildə ifadə etməkdən çəkinmədi. Hovhannes, o cümlədən erməni kilsəsinin xeyrinə xəlifə Ömər bin Əbdüləzizdən imtiyazlar əldə etməyə cəhd etmişdi. Nəticədə ermənilərin dini azadlıqları genişləndirilmiş kilsə və rahib sinifin üzərinə qoyulan vergilərin azaldılması, əsir düşmüş şəxslərin azadlığına nail olunmuşdur. Abbasilər dövründə ermənilər öz dini azadlıqlarını və kilsə quruculuq işlərini davam etdirirdilər. Abbasilər zamanında Bizans və Şərqi xristianlıq dünyası üçün iki böhran olan, ikonaçılıq və paulizm məsələsi olmuşdu. Abbasilər hakimiyyəti altında olan xristian dünyasına bunun bəzi təsirləri olsa da, ərəblərin dini bütövlük siyasəti sayəsində bir təhlükə yarada bilməmişdi. Erməni kilsəsi faktiki olaraq dövlət funksiyalarını özündə formalaşdıran bir quruluşa malik olması onun yad dini təriqətlərə qarşı qorunmasında mühüm rol oynamışdır. Ermənilərin uzunmüddətli bir dövlət anlayışı olmasa da, kilsə bir təşkilat kimi ermənilərin həyatında dövlət funksiyalarını yerinə yetirmişdir.

Əməvi və Abbasi zamanında yazılmasına imkan yaradılmış erməni tarixləri ilə bağlı yazılmış əsərlər erməni milli kimliyinin formalaşmasında mühüm töhfələri qoruyub saxlamışdır. Buna baxmayaraq, ərəblərə qarşı öz mövqelərini öz əsərlərində yer

vermişdirlər. Gevontun "Ermənistanda ərəblərin müharibələri və fəthlərinin tarixi" adlı əsərdə VII əsrdə ermənilərin müqavimətini Ardziruni şahzadələrin öldürülməsi ilə bağlı duyğulu şəkildə yazılmışdır. Bundan başqa Moisey Xorenli yeni bir xalq yaratmaq cəhdi etmiş, ermənilərin Sasanilərlə müharibələrin şişirdilmiş şəkildə yazaraq, həm onların sarsılmış namusunu xilas etməyə, həm də milli şüur yaratmağa çalışmışdır [1, s.22].

İstər xristianlığın yayılma dövründə, istərsə də xristianlıqdan əvvəlki dönəmdə erməni milli şüurunda "əzabkeş xalq" və "zülmə məruz qalmış xalq" anlayışları xüsusi yer tutmuşdur. Xüsusilə xristianlığın qəbul edilməsindən sonra bu devizlər daha da geniş yayılmışdır. Bu da, təbii ki, xristianlıqdakı "İsa obrazı" ilə, (əzabkeş və zülmə məruz qalmış) əlaqəli olmuşdur. Yenə Moisey Xorenatsinin əsərində ermənilərin soyunun Nuh peyğəmbərə bağlayaraq, erməni milli və dini kimliklərinin əsaslarını qoydu deyə bilərik. Lakin Moisey Xorenatsi ilə başlayan bu tarix yazımı, xüsusilə ərəb hakimiyyəti dövründə redaktə edilərək inkişaf etdirildi və yalnız ermənilər öz milli sərhədlərində qalmadı. Bu tarixi konsepsiya yüzillər boyu qonşu xalqlarını narahat edən "Böyük Ermənistan" ideologiyasına çevrilərək öz ilə müxtəlif ərazi problemlərinin əsasını qoymuş oldu. Yuxarıda da qeyd etdiyimiz kimi, ermənilərin "yazıq xalq" kimliyi yeni ortaya çıxmış məsələ deyil. Tarix boyu özlərini əzilən və təzyiq altında göstərilən xalq anlayışından istifadə edərək, bunu təbliğat vasitəsinə çevirmişdilər. Yəni bu məsələ XX əsrin əvvəllərində deyil, tarixdə ortaya çıxdıqları vaxtdan romalıların, bizanslıların, Sasanilərin, ərəblərin, Səlcuqilərin, Osmanlıların və rusların təzyiqləri altında bu yaşam tərzini nəsildən-nəsilə keçirmiş və travmatik bir duyğu halında bunu mənimsəmişdilər. Ola bilər, tarixdə imperiyaların işğalçı siyasətlərində assimilyasiyaya və təzyiqlərə məruz qalmışlar, lakin bu hal bir ənənə şəkilində təsisat yaddaşına çevrilmişdir.

**Nəticə**

Ermənilíyin formalaşmasında din faktorun xüsusi rolu olmuşdur. İstər bütpərəstlik dönəmində, istərsə də xristianlıqda ermənilərin birləşmə motivi din olmuşdur. Ermənilər qonşuluqlarındakı bu dinləri səmimi şəkildə deyil, həmin dövrün tarixi şəraitinə uyğun olaraq qəbul etmişdirlər.

Cənubi Qafqazda müsəlman ərəblərin təxminən üç əsrlik hökmranlığı orta əsrlər və müasir erməni tarixşünaslığında, demək olar ki, tam zülm və qəddarlıq dövrü kimi şərh olunur. Lakin son illər istər Qərb, istərsə də yerli tərəfsiz tədqiqatçılar, yaşanan çətinliklərə baxmayaraq, bu dövrün erməniləri üçün, sərfəli dönəm olduğu fikrini müdafiə edirlər. Əməvilər mərkəzə sadiq qaldıqları və mütəmadi olaraq vergiləri ödədikləri müddətcə öz qeyri-müsəlman təbələrinin şəxsi həyatlarına qarışmadılar. Hətta müsəlman təəbələrinə eyni tolerantlığı göstərməmişdirlər. Əməvilər ərəb millətçiləri olduqları üçün çox vaxt islam adı altında ərəbləşdirmə siyasəti həyata keçirirdilər. Xristian xalqının islamlaşmasından çox ümid gözləmədikləri üçün vergiləri və anti-Bizans rəftarları Əməvilər üçün kifayət idi. Bu səbəbdən ərəb hakimiyyəti altında ermənilər Bizansdan qorxmadan dini və milli məsələlərlə bağlı xeyli əsərlər yaratdılar. Bəzi qərb tədqiqatçılar bunu ermənilərin bədii istedadı ilə əlaqələndirirdilər. Doğrudur, ermənilərdə fərdi olaraq istedadlı tarixçilər və yazıçılar olmuşdur. Lakin Bizans dövründə eyni işi yerinə yetirmək imkanına malik olmamaları islam dininin tolerantlığı və təbii həmin dövrdə Ərəb xilafətinin maraqlarına uyğunluğu ilə bağlıya bilərik. Digər xristian təriqətlərə qarşı Ərəblər erməni monofizitliyindən istifadə etməsi də, erməni kilsəsinin apardığı siyasi və mədəni tədbirlərin yolunu açmışdır. Səlcuqi və Osmanlı hakimiyyəti zamanında da ermənilər iqtisadi və siyasi olaraq rahat həyat sürmüşdülər. Maraqlıdır ki, Osmanlı hakimiyyəti dövründə ermənilər özlərinin yüksəliş dövrünü yaşamışdılar.

## ƏDƏBİYYAT

1. Qəhrəmanov E. Erməni tarixinin formalaşmasında mühüm yer tutan erməni əfsanələrinə ümumi bir baxış // Sivilizasiya, 2023, cild: 12, №4 (55), s.69-75. (https://www.Sivilizasiya.edu.az/images/October/Elgn%20Qhrmanov%20Ermni%20tarixinin%20formalamasnda%20mhm%20yer%20tutan%20ermni%20fsanlrin%20mumi%20bir%20bax%20.pdf).
2. Cin A. Musa Hornasının Tarihi Ermensitan adlı Eseri // Turkish Academic Research Review. Cilt: 2, Sayı: 3, s.11-24, december 2017. (https://dergipark. org.tr/tr/download/article-file/397378).
3. Cinemre İ.T Geç Antik Cağ Armeniasında kimlik paradigması Armenialılar Ermeni-midir? // Belleten, Nisan, 2022, Cilt: 86, Sayı: 305, s.61-88.
4. Hripsime A. Ermeni Kilsesinde Yapılmakta Olan Vaftiz Töreni ve Vaftiz Babalığı. İstanbul, 1985, 206 s. (https://nek.istanbul.edu.tr/ekos/TEZ/59408.pdf).
5. Boettiger L.E .Armenian Legends and Festivals (http s:// www.gute nberg.org/files/38129/38129-h/38129-h.htm).
6. Luttwak E.N. The Grand strategy of the Roman Empire. (https://theswissbay.ch/pdf/Books/Ancient%20history/The%20Grand%20Strategy%20of%20the%20Roman%20Empire%20%20Edward%20N.%20Luttwak.pdf).

### *Резюме*

***Эльгун Кахраманов***

### *Парадигма идентичности в армянской системе убеждений*

Независимо от того, на каком уровне развития находились нации, будь то в древние времена или в современности, всегда существовала потребность во что-то верить. Наибольшее влияние на мировоззрение и идентичность армян оказала религия. Можно увидеть, что ранняя система верований армян имела смешанное и разнообразное происхождение. Когда мы смотрим на систему верований армян в древние времена, мы видим, что она имела больше общих черт с религиями соседних стран.

Кто такой армянин с давних пор? Ответ на вопрос был в основном интерпретирован именно таким образом. Принадлежащие к Армянской Апостольской Церкви (Григорианской Церкви) являются армянами. Такой ответ удовлетворял армянское общество вплоть до середины XIX века. Однако после появления национализма и других идеологий реакции стали различаться. Кто был армянином до христианства? Ответ на этот вопрос остается неопределенным и по сей день. Отождествление Армении с армянами произошло в основном после принятия христианства. После принятия христианства различные общины региона, называемого Арменией, объединились под названием армяне и выступили против Сасанидов.

При рассмотрении религиозных верований армян до принятия христианства можно выделить две основные линии. Можно увидеть поклонение греческим богам и иранским богам. Предпочтение армян греческим богам во многом объяснялось тем, что они считали греческую религию важной для того, чтобы воспользоваться преимуществами эллинской культуры и ускорить процесс урбанизации. Идолы, связанные с этими богами, в основном встречались на территории современного Эрзинджана. В более поздние периоды эти боги были заменены иранскими богами. Лучшим примером такого религиозного обращения можно считать поклонение богине Анаит сначала как греческому, а затем как иранскому божеству. Главной причиной этого было то, что им приходилось выбирать между двумя разными мировоззрениями – греческой и иранской культурами. То есть, время от времени, понятно вставать на сторону более сильного. Армяне считают принятие христианства величайшим событием в своей истории.

**Ключевые слова:** *Армения, армянское язычество, Моисей Хоренли, армянская идентичность, армянское христианство*

***Summary***

***Elgun Gahramanov***

***The Paradigm of Identity in the Belief System of the Armenians***

Regardless of the level of development of nations, both in ancient times and in modern times, there has always been a need to believe in something. Religion has had the greatest influence on the worldview and identity of Armenians. It is possible to see that the first belief system of Armenians was of mixed and diverse origin. When we look at the belief system of Armenians in ancient times, we can see that it has more features in common with the religions of neighboring countries.

For a long time, the answer to the question of who is an Armenian? was mainly interpreted in this way. Those who belong to the Armenian Apostolic Church (Gregorian Church) are Armenians. This answer satisfied Armenian society until the middle of the 19th century. However, after the emergence of nationalism and other ideologies, the answers began to vary. The answer to the question of who was an Armenian before Christianity? remains uncertain even today. The identification of Armenia with Armenians occurred mainly after the adoption of Christianity. After the adoption of Christianity, various communities in the geography called Armenia united under the name of Armenians and took the front against the Sasanians.

When examining Armenian religious beliefs before Christianity, two main lines can be seen. It is possible to see the worship of Greek gods and Iranian gods. The preference of Armenians for Greek gods was mainly due to the fact that they considered Greek religion important in order to benefit from the advantages of Hellenic culture and accelerate the urbanization process. Idols related to these gods were mostly found in the present-day Erzincan region. In later periods, these gods were replaced by Iranian gods. The worship of the goddess Anahit first as a Greek and then as an Iranian deity can be considered the best example of this religious conversion. The main reason for this was the choice between two different worldviews, the Greek and Iranian cultures. That is, from time to time, it can be understood who would take a place on the side of the stronger. Armenians consider the adoption of Christianity as the greatest event in their history.

**Key words:** *Armenia, Armenian paganism, Moisey Khorenli, Armenian identity, Armenian Christianity*

Redaksiya heyətinin üzvü t.ü.f.d. Rüstəmova Aybəniz Vilayət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.